# Atıcı (Mühafizəçi) peşəsi üzrə test tapşırıqları

1. Qarovul xidməti nə üçün nəzərdə tutulmuşdur? Tam və dolğun cavabı seçin.

A) Döyüş bayraqlarının, silahların, döyüş texnikasının və digər texnikanın, döyüş sursatının, partlayıcı maddələrin, başqa əmlakın saxlandığı yerləri, digər hərbi və dövlət obyektlərini etibarlı mühafizə və müdafiə etmək, həmçinin, hauptvaxtda və intizam xarakterli hərbi hissədə saxlanan həbs edilənləri və məhkumları mühafizə etmək

B) Qarovulun şəxsi heyəti arasında nizam-intizamı təmin etmək, döyüş bayraqlarının, silahların, partlayıcı maddələrin, başqa əmlakın saxlandığı yerləri mühafizə və müdafiə etmək, qarovulun şəxsi heyəti ilə birlikdə tədbirlərdə iştirak etmək

C) Qarovulun şəxsi heyətini xidməti geyim forması və digər lazımi vəsaitlərlə təmin etmək, qarnizonun şəxsi heyətinin ümumi işinə rəhbərlik etmək, mühüm strateji əhəmiyyətli obyektlərin mühafizə və müdafiəsini təmin etmək

D) Qarovulun şəxsi heyəti arasında yüksək hərbi intizamı təmin etmək, qoşunların gündəlik həyat və hazırlığı üçün lazımi şərait yaratmaq, onların iştirakı ilə dövlət tədbirlərini keçirmək

E) Döyüş bayraqlarının, silahların və digər texnikanın, döyüş sursatının, partlayıcı maddələrin, başqa əmlakın saxlandığı yerləri, digər hərbi və dövlət obyektlərini etibarlı mühafizə və müdafiə etmək, həmçinin, hauptvaxtda və intizam xarakterli hərbi hissədə saxlanan həbs edilənləri və məhkumları mühafizə etmək, qarovulun şəxsi heyətini xidməti geyim forması və digər lazımi vəsaitlərlə təmin etmək və ümumi işinə rəhbərlik etmək

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

2. Qarnizon ərazisində qarnizon və qarovul xidmətinə kim rəhbərlik edir?

A) Qarovul rəisinin köməkçisi

B) Qarovul rəisi

C) Hərbi hissə komandiri

D) Qarnizon rəisi

E) Qarnizon rəisinin köməkçisi

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

3. Qarnizonda patrulluq neçə həyata keçirilə bilər? Tam və dolğun cavabı seçin.

A)  Piyada, iki nəfərdən az olmayaraq qrup ilə

B) Yalnız piyada

C) Piyada, motosikllərlə, yaxud avtomaşınlarla

D)  Motosikllərlə, yaxud avtomaşınlarla

E) Qarnizon rəisinin şəxsən nəzarəti ilə iki nəfərdən az olmayaraq qarovul nəfərinin piyada hərəkəti ilə

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

4. Qarnizonda patrul kimlərdən ibarətdir? Tam və dolğun cavabı seçin.

A) Patrul rəisindən və bir patrul nəfərindən

B) Patrul rəisindən və iki-üç patrul nəfərindən

C) Qarnizon rəisindən və iki-üç patrul nəfərindən

D)  Qarovul rəisindən və iki-üç patrul nəfərindən

E) Patrul nəfərlərindən

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

5. Qarnizonda patrul nəfəri kimlərdən təyin olunur? Tam və dolğun cavabı seçin.

A) Qarnizon rəisinin köməkçisi və ya əsgərlərdən

B) Yalnız çavuşlardan və zabitlərdən

C) Gizirlərdən və zabitlərdən

D) Yalnız əsgərlərdən (matroslardan)

E) Əsgərlərdən (matroslardan) və ya çavuşlardan

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

6. Qarnizonda partulun şəxsi heyətinə xidmət vaxtı nə qadağandır? Tam və dolğun cavabı seçin.

A) Xidməti vəzifəsini yerinə yetirmək, əsgəri salamlaşma qaydalarını yerinə yetirməkdən yayınmaq

B) Kənar şəxslərlə danışmaq və başqa yollarla öz vəzifəsini yerinə yetirməkdən yayınmaq

C) Tutulub saxlananların xahişləri barədə patrul rəisinə məlumat vermək və kənar işlə məşğul olmaq

D) Kənar şəxslərlə ünsiyyət qurmaq və xidmət müddətində baş vermiş hadisələr barədə məxfilik baxımından tabe olduğu şəxsə məlumat vermək

E) Yazmaq, gəzmək, yatmaq və kənar işlə məşğul olmaq

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

7. Parol nədir və nə üçün istifadə olunur? Tam və dolğun cavabı seçin.

A) Parol hərbi termindir, döyüş zamanı istifadə olunan bir vasitədir

B)  Parol şərti sözdür, o qarovulların xidmət aparması zamanı istifadə olunan vasitədir

C)  Parol məxfi sözdür, o qarovulda baş vermiş hadisələrin, məxfi informasiyaların ötürülməsi zamanı istifadə olunan vasitədir

D) Parol məxfi sözdür, o qarovul rəisi üçün dəyişməyə gəlmiş qarovulun doğrudan da bu məqsəd üçün təyin olunmasını təsdiq edən bir vasitədir

E) Parol məxfiləşdirilmiş sözdür, təlim məşğələləri və döyüş hazırlıqları zamanı istifadə olunan bir vasitədir

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

8. Qarovul xidmətini yerinə yetirmək nə deməkdir? Tam və dolğun cavabı seçin.

A) Obyektlərin etibarlı mühafizə olunması deməkdir

B) Döyüş vəzifəsini yerinə yetirmək deməkdir

C) Döyüş bayraqlarını, hərbi və dövlət obyektlərini mühafiz və müdafiə etmək deməkdir

D) İntizam taborunda saxlanılan şəxslərin mühafizəsini düzgün həyata keçirilməsi deməkdir

E) Nizam-intizamlı olmaq, obyektlərin etibarlı mühafizəsini təmin etmək deməkdir

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

9. Qarovul xidməti tələblərinin pozulmasında təqsirkarlar hansı məsuliyyət daşıyır? Tam və dolğun cavabı seçin.

A) İntizam və maddi məsuliyyət

B) Cinayət və mülki məsuliyyət

C) Maddi və mənəvi məsuliyyət

D) İntizam və cinayət məsuliyyəti

E) Heç biri

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

10. Qarovul xidmətini yerinə yetirmək üçün nə təyin olunur? Tam və dolğun cavabı seçin.

A) Qarnizon

B) Bölmələr, postlar

C) Qarovullar və bölmələr

D) Qarovullar

E) Hərbi hissə

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

11. Kimlərin qarovula təyin olunması qadağandır? Tam və dolğun cavabı seçin.

A) Hərbi and qəbul etməmiş, gənc əsgərlərin hazırlıq proqramını mənimsəməmiş, xəstələnmiş, nalayiq hərəkətlərə görə barələrində təhqiqat aparılan, həmçinin, intizam cəzası çəkməkdən ötrü hərbi qulluqçuların

B) Hərbi and qəbul etmiş, gizir və zabitlərin hazırlıq proqramını mənimsəməmiş, nalayiq hərəkətlərə görə barələrində təhqiqat aparılan hərbi qulluqçuların

C) Hərbi and qəbul etməmiş, gənc əsgərlərin döyüş təlimlərində iştirak etməyən, səhətində müəyyən problemlər olan, fiziki baxımdan zəif olan, silahdan istifadə qaydalarını mənimsəmə səviyyəsi yoxlanılmayan, həmçinin, intizam cəzası çəkməkdən ötrü hərbi qulluqçuların

D) Yalnız xidmət zamanı etdiyi nöqsanlara, eləcə də, nalayiq hərəkətlərə görə barələrində təhqiqat aparılan hərbi qulluqçuların

E) Üzərlərində cinayət məsuliyyəti, ikili vətəndaşlığı olan hərbi qulluqçuların

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

12. Qarovullar təyinatına görə neçə növ olur və hansılardır? Tam və dolğun cavabı seçin.

A) 2 növ, daxili (düşərgə) və daimi qarovullar

B) 2 növ, qarnizon (düşərgə) və daxili (gəmi) qarovullar

C) 3 növ, sutkalı, 16 saatlıq, 8 saatlıq qarovullar

D) 2 növ, çevik və müvəqqəti qarovullar

E) 5 növ, sutkalıq, 16 saatlıq, iki növbəli. 12 saatlıq və 8 saatlıq qarovullar

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

13. Daxili (gəmi) qarovulu nə üçün təyin olunur. Tam və dolğun cavabı seçin.

A) Bir hərbi hissənin (gəminin) obyektlərini mühafizə və müdafiə etmək üçün

B) Bir neçə hərbi hissələrin (gəmilərin) obyektlərini mühafizə və müdafiə etmək üçün

C) Özünün mühafizə bölmələri olmayan mərkəzi tabelikdəki ordu obyektlərini, ümumqarnizon əhəmiyyətli obyektləri mühafizə və müdafiə etmək üçün

D) hauptvaxtda saxlanılan şəxsləri mühafizə etmək üçün

E) birləşmələrin və ya bir-birinə yaxın məsafədə yerləşən bir neçə hərbi hissənin obyektlərini mühafizə və müdafiə etmək,

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

14. Qarnizon (düşərgə) qarovulları nə üçün təyin olunur. Tam və dolğun cavabı seçin.

A) Bir hərbi hissənin (gəminin) obyektlərini mühafizə və müdafiə etmək üçün

B) Özünün mühafizə bölmələri olmayan mərkəzi tabelikdəki ordu obyektlərini, ümumqarnizon (ümumdüşərgə) əhəmiyyətli obyektləri, birləşmələrin və ya bir-birinə yaxın məsafədə yerləşən bir neçə hərbi hissənin obyektlərini mühafizə və müdafiə etmək, həmçinin, qarnizon hauptvaxtda saxlanan şəxsləri mühafizə etmək üçün

C) Özünün mühafizə bölmələri olmayan mərkəzi tabelikdəki ordu obyektlərini, ümumqarnizon (ümumdüşərgə) əhəmiyyətli obyektləri, birləşmələrin və ya bir-birinə yaxın məsafədə yerləşən bir neçə hərbi hissənin obyektlərini mühafizə və müdafiə etmək

D) Özünün mühafizə bölmələri olan mərkəzi tabelikdəki obyektlərini, ümumqarnizon (ümumdüşərgə) əhəmiyyətli obyektləri, bir-birinə yaxın məsafədə yerləşən bir neçə hərbi hissənin obyektlərini mühafizə və müdafiə etmək, qarnizon hauptvaxtda saxlanan şəxsləri mühafizə etmək üçün

E) Mühüm strateji əhəmiyyətli obyektləri mühafizə və müdafiə etmək

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

15. Daimi qarovullar hansı qaruvullardır? Tam və dolğun cavabı seçin.

A) Tərkibində sutkalıq 2 postdan çox postu olan qarovullar

B) Qarovullar cədvəlində nəzərdə tutulmayan qarovullar

C) Hərbi əmlak dəmiryol stansiyalarında yüklənib-boşaldılarkən, yaxud daşınarkən təhlükəli yüklərin müşayiət edilməsində istifadə olunan qarovullar

D) Obyektlərin mühafizəsi üçün daimi müqavilə bağlanaraq onun mühafizə və müdafiəsini həyata keçirən qarovullar

E) Qarovullar cədvəlində nəzərdə tutulan qarovullar

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

16. Müvəqqəti qarovullar hansı qarovullardır? Tam və dolğun cavabı seçin.

A) Qarovullar cədvəlinə daxil ediməyən qarovullar

B) Qarovullar cədvəlində nəzərdə tutulan qarovullar

C) Hərbi hissədən uzaq məsafədə xidmət aparan qarovullar

D) Bir neçə hərbi hissənin obyektlərini müvəqqəti mühafizə edən qarovullar

E) Tabelində 3 postdan çox postları olan qarovullar

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

17. Qarovullar dəyişmə zamanı qarovullar növbətçisini qarşılamaq üçün hansı komanda verildiyi andan tabe olduğu şəxslərin tabeçiliyinə keçir? Tam və dolğun cavabı seçin.

A) Düzlən

B) Addımla marş

C) Diqqət mərkəzə

D) Azad

E) Farağat

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

18. Qarovullar növbədən sonra öz hərbi hissəsinə (bölməsinə) qayıtmaq üçün qarovul rəisinin hansı komandası verildiyi andan tabe olduğu şəxslərin tabeçiliyindən çıxır? Tam və dolğun cavabı seçin.

A) Farağat

B) Addımla marş

C) Diqqət mərkəzə

D) Azad

E) Düzlən

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

19. Qarovulun tərkibinə kimlər daxildir? Tam və dolğun cavabı seçin.

A) Qarovul rəisi, postların və növbələrin sayına görə qarovul nəfərləri, dəyişdiricilər, zərurət olduqda isə qarovul rəisinin köməkçisi və nəqliyyat vasitələrinin sürücüləri

B) Qarovul rəisi, postların və növbələrin sayına görə qarovul nəfərləri

C) Postların və növbələrin sayına görə qarovul nəfərləri, saatdarlar, dəyişdiricilər, zərurət olduqda isə qarovul rəisinin köməkçisi, müavini və nəqliyyat vasitələrinin sürücüləri

D) Bölük komandiri, bölük növbətçisi, patrul rəisi, patrul nəfəri, dəyişdiricilər, zərurət olduqda isə qarovul rəisinin köməkçisi, müavini və nəqliyyat vasitələrinin sürücüləri

E) Yalnız qarovul rəisi və qarnizon rəisinin təyin etdiyi sayda qarovul nəfərləri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

20. Post nədir? Tam və dolğun cavabı seçin.

A) Mühafizə və müdafiə edilməsi saatdara tapşırılmış bütün obyektlər, həmçinin onun öz vəzifəsini icra etdiyi yer və ya sahə

B) Mühafizə və müdafiə edilməsi dəyişdiriciyə tapşırılmış bütün obyektlər, həmçinin onun öz vəzifəsini icra etdiyi yer

C) Mühafizə və müdafiə edilməsi qarovul rəisinə tapşırılmış yer və ya sahə

D) Obyektin mühafizəsi üçün müvafiq komissiya tərəfindən baxılaraq müəyyən edilmiş, əsasən obyektin zəif tərəflərinin mühafizəsinə yönəldilmiş yer və ya sahə

E) Obyektin daxilində olan tikili

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

21. Qarovulun tərkibinə daxil olan şəxslər xidmət zamanı nalayiq hərəkət etdikdə, onlara inzibati cəza nə vaxt verilə bilər? Tam və dolğun cavabı seçin.

A) Xidmətdə olduğu müddətdə

B) Qarovul növbəsindən və ya onlar başqa hərbi qulluqçularla əvəz edildikdən sonra

C) Nöqsan aşkarlandığı vaxt

D) Nalayiq hərəkətlərə yol verdikləri tarixdən bir həftə müddətində, istisna halda 28 günədək

E) Qarovul xidmətinin sonunda

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

22. Silah doldurularkən və boşaldılarkən onun lüləsi necə yönəldilməlidir? Tam və dolğun cavabı seçin.

A) 30-70 dərəcəli bucaq altında aşağıya, ətrafdakı yaşayış binalarından və mühafizə olunan obyektlərdən yana

B) 30-70 dərəcəli bucaq altında yuxarıya, ətrafdakı yaşayış binalarından və mühafizə olunan obyektlərdən yana

C) ətrafdakı yaşayış binalarından və mühafizə olunan obyektlərdən yana

D) 45-60 dərəcəli bucaq altında aşağıya, ətrafdakı yaşayış binalarından və mühafizə olunan obyektlər istiqamətinə

E) 45-60 dərəcəli bucaq altında yuxarıya, ətrafdakı yaşayış binalarından və mühafizə olunan obyektlərdən yana

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

23. Patrulluqetmə ilə obyektlərin mühafizəsi təşkil edilərkən, obyektin hasarlanmasından və yerin şəraitindən asılı olaraq, təyin olunmuş vaxt ərzində saatdara mühafizə və müdafiə üçün zolaq hansı məsafədə təyin edilir?

A) Gündüz 2 km-dək, gecə 1 km-dək

B) Gündüz 1 km-dək, gecə 2 km-dək

C) Gündüz 2 km-dək, gecə 2 km-dək

D) Gündüz 4 km-dək, gecə 2 km-dək

E) Gündüz 2 km-dək, gecə 500 metrədək

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

24. Ətraf yaxşı görünəndə ərazi şəraiti imkan verirsə, saatdarlar mühafizə olunan obyektləri və onların giriş yollarını hansı qaydada mühafizə edə bilərlər?

A) Video müşahidə kameralarının görüntülərinə nəzarət etməklə

B) Xüsusi hazırlanmış post köşkündən dayanaraq

C) Təyin olunmuş məntəqədən oturaraq

D) Xüsusi hazırlanmış qüllələrdən müşahidə yolu ilə

E) Xüsusi hazırlanmış qüllədən istirahət etməklə

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

25. Saatdarlara kömək məqsədilə ehtiyat qruplar kimlərdən təşkil edilir? Tam və dolğun cavabı seçin.

A) Ancaq xidmət aparan qarovulun oyaq və istirahətdə olan şəxsi heyətindən, onların razılığı ilə

B) Bütün qarovul otaqlarında ehtiyatda olan və xidmət aparan növbələrin qarovul nəfərlərindən

C) Bütün qarnizonda olan hərbi qulluqçulardan

D) Bütün qarovul otaqlarında oyaq və istirahət edən növbələrin qarovul nəfərlərindən

E) Hərbi hissə komandirinin müvafiq əmri ilə, qarovul rəisinin göstərişi ilə, xüsusi hazırlıq keçmiş qarovul nəfərlərindən

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

26. Hərbi qulluqçunu nalayiq hərəkətinə görə xidməti davam etdirməyə buraxmaq qeyri-mümkün olduqda nə edilməlidir? Tam və dolğun cavabı seçin.

A) O, qarovul (hərbi hissə, gəmi) növbətçisinin sərəncamına əsasən başqa hərbi qulluqçu ilə əvəz edilmək üçün silahsız və döyüş sursatsız hərbi hissəyə (bölməyə) göndərilməlidir

B) O, qarnizon rəisinin göstərişinə əsasən başqa hərbi qulluqçu ilə əvəz edilmək üçün silahsız hərbi hissəyə (bölməyə) göndərilməlidir

C) O, qarovul (hərbi hissə, gəmi) növbətçisinin sərəncamına əsasən xüsusi şəxsin nəzarəti ilə xidmətini başa vurmalı və sonra aidiyyəti üzrə bu barədə tam və dolğun məlumat verilməlidir

D) O, qarovul (hərbi hissə, gəmi) növbətçisinin fərmanına əsasən gücləndirilmiş qaydada xidmətini davam etdirməli və onun xidmətinə nəzarət xüsusi şəraitdə həyata keçirilməli, xidmətdən sonra isə barəsində ciddi tədbir görülməlidir

E) O, xidmətini sonadək davam etdirməli, xidmətdən sonra isə xüsusi müşayiət ilə hərbi hissəyə (bölməyə) göndərilməlidir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

27. Silahlar nə vaxt doldurulmalı və nə vaxt başaldılaraq yoxlanılmalıdır? Tam və dolğun cavabı seçin.

A) Silah ancaq bir dəfə doldurulur və yalnız hər hansı hadisə baş verdikdə silahdan istifadə olunduqdan sonra qarovul otağında boşaldılır və yoxlanılır

B)  Postlara gedərkən doldurulur, qarovul otağında ümumi xidmətin sonunda boşaldılır və yoxlanılır

C) Postlara getməzdən əvvəl doldurulur, qarovul rəisinin sərəncamı ilə təyin olunmuş vaxtlarda xüsusi ayrılmış yerdə boşaldılır və yoxlanılır

D)  Postda xüsusi yerdə doldurulur, qarovul otağında günün sonunda boşaldılır və yoxlanılır

E) Postlara getməzdən əvvəl doldurulur, qarovul otaqlarına qayıdan kimi dərhal boşaldılır və yoxlanılır

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

28. Silahlar harada doldurulub və boşaldılmalıdır? Tam və dolğun cavabı seçin.

A) Qarovul otağının qabağında xüsusi hazırlanmış və işıqlandırılmış, güllətutanı olan yerdə, növbə maşınla postlara getdiyi halda isə qarovul rəisi üçün təlimatda göstərilən, zərurət olduqda bu cür hazırlanmış yerlərdə

B) Qarovul otağında xüsusi hazırlanmış güllətutanı olan yerdə, növbə maşınla postlara getdiyi halda isə qarovul rəisi üçün təlimatda göstərilən, zərurət olduqda qarovul otağının qarşısında

C) Şəraitdən və mövcud vəziyyətdən asılı olaraq fərqli yerlərdə

D)  Ancaq qarovul otağında güllətutanı olan yerdə

E)  Qarovul otağının qabağında xüsusi təyin edilmiş yerdə, hər cür şəraitlə təmin edilmiş, işıqlandırılmış yerdə, postların qarşısında

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

29. Silahlar kimin komandası və nəzarəti altında doldurulub və boşaldılmalıdır? Tam və dolğun cavabı seçin.

A) Qarovul rəisinin və qarnizon rəisinin

B) Qarovul rəisinin və ya onun köməkçisinin (dəyişdiricilərin)

C)  Müstəqil şəkildə

D)  Qarovul rəisinin köməkçisinin və ya dəyişdiricinin

E) Hərbi hissə növbətçisinin və ya hərbi hissə komandirinin

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

30. Tapança doldurulmazdan qabaq nə edilməlidir? Tam və dolğun cavabı seçin.

A) Qoruyucuya qoyulmamalıdır

B)  Sazlığı yoxlanılır

C) Çaxmaq geri çəkilməlidir

D) Qoruyucuya qoyulur

E) Mütəxəssisin xüsusi yoxlaması həyata keçirilməlidir

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

31. Ehtiyat döyüş patronları harada saxlanılmalıdır? Tam və dolğun cavabı seçin.

A)  Xüsusi plasmas və ya plasmas üzlüklü yeşikdə sink qutuda

B) Xüsusi dəmir və ya dəmir üzlüklü yeşikdə taxta qutuda

C)  Xüsusi sink  və ya sink üzlüklü yeşikdə dəmir qutuda

D)  Xüsusi dəmir və ya dəmir üzlüklü yeşikdə gümüş qutuda

E) Xüsusi dəmir və ya dəmir üzlüklü yeşikdə sink qutuda

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

32. Döyüş sursatı olan yeşiklərin açarı və ona vurulmuş möhürün surğuc surəti kimdə saxlanılır? Tam və dolğun cavabı seçin.

A) Hərbi hissə komandirində

B)  Qarovul rəisinin köməkçisində

C) Qarnizon rəisində

D) Qarovul rəisində

E) Silah anbarının müdirində

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

33. Qarovulun mühafizə etdiyi saxlancların (anbarların, parkların) açılmasına və maşınların (təyyarələrin, topların, ya da döyüş texnikasının) dayanacaq yerlərinə buraxılmasına icazə nə əsasında verilir? Tam və dolğun cavabı seçin.

A) Qarnizon hərbi komendantı (hərbi hissə qərargahı rəisi) tərəfindən imzalanmış və gerbli möhürlə təsdiq edilmiş daimi və ya birdəfəlik icazə vərəqəsinə əsasən

B) Qarnizon hərbi komendantı (hərbi hissə qərargahı rəisi) tərəfindən imzalanmış və gerbli möhürlə təsdiq edilmiş daimi, müvəqqəti icazə vərəqəsinə əsasən

C) Qarnizon hərbi komendantı (hərbi hissə qərargahı rəisi) tərəfindən təsdiq edilmiş xüsusi buraxılış vərəqəsi və ya gəlmiş şəxsin şəxsiyyətini təsdiq edən sənədə əsasən

D) Qarovul rəisi və onun köməkçisi (dəyişdiricilər) tərəfindən imzalanmış və gerbli möhürlə təsdiq edilmiş daimi və ya birdəfəlik icazə vərəqəsinə əsasən

E) Müdafiə Nazirliyinin təsdiq etdiyi siyahıya əsasən

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

34. Qarnizon qarovulları kim tərəfindən təyin edilir?

A) Hərbi hissə qərargahı rəisi

B) Qarnizon hərbi komendantı

C) Qarovul rəisləri

D) Müdafiə Naziri

E) Qarnizon rəisinin köməkçisi

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

35. Daxili qarovullar kim tərəfindən təyin edilir?

A) Qarnizon hərbi komendantı

B) Hərbi hissə qərargahı rəisi

C) Qarovul rəisləri

D)  Müdafiə Naziri

E)  Qarnizon rəisinin köməkçisi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

36. Qarovulların dəyişdirilmə müddəti necə olmalıdır?

A) Qarovullar hər sutkada dəyişdirilməlidir

B) Qarovullar iki sutkadan bir dəyişdirilməlidir

C)  Qarovullar üç sutkada iki dəfə dəyişdirilməlidir

D)  Qarovullar dəyişdirilməməlidir

E) Qarovullar qarovul heyətinin gücü tükəndikdə dəyişdirilməlidir

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

37. Eyni hərbi qulluqçular qarovula hansı müddət intervalında təyin edilməlidir?

A)  Ən çoxu bir sutkadan bir

B) Ən azı iki sutkadan bir

C)  Ən çoxu 3 sutkadan bir

D) Ən çoxu iki sutkadan bir

E)  12 saatdan az olmayaraq istənilən müddətdə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

38. Postlar tabelində nə göstərilmir? Tam və dolğun cavabı seçin.

A) Posta, yaxud qonşu postlara basqın və postdan yanğın vaxtı saatdarların hərəkətləri, onların hansı hallarda silah işlətməsinə icazə verildiyi

B) Hər postda nəyin mühafizə və müdafiə olunması

C) Postun xüsusiyyətini və postda xidmət aparılmasının konkret şəraitini nəzərə almaqla, saatdarların vəzifələri

D) Qüllədən müşahidə aparmasına icazə verilən vaxt, kənar şəxslərin posta buraxılması qadağan edilmiş ən yaxın məsafə

E) Hasarın növü, növbələrin və patrulların postlara minik vasitələrində hərəkət marşrutları

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

39. Qarovulun heyətinə dəyişdiricilər kimlərdən təyin edilir? Tam və dolğun cavabı seçin.

A) Çavuşlardan, baş əsgərlərdən (baş matroslardan) və ya yaxşı hazırlıqlı əsgərlərdən (matroslardan)

B) Çavuşlardan, baş əsgərlərdən (baş matroslardan) və ya gizirlərdən

C) Çavuşlardan və əsgərlərdən

D) Ancaq əsgərlərdən və ya yaxşı hazırlıqlı əsgərlərdən (matroslardan)

E) Xidmət zamanı fərqlənən əsgərlərdən, eləcə də, xüsusi təltiflənmiş cavuş və baş əsgərlərdən (matroslardan)

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

40. Postların sayından və yerindən asılı olaraq dəyişdiricilərin miqdarı necə olmalıdır? Tam və dolğun cavabı seçin.

A)  Hər bir dəyişdirici postlara altı nəfərdən çox saatdar qoymasın

B) Hər bir dəyişdirici postlara dörd nəfərdən çox saatdar qoymasın

C)  Hər bir dəyişdirici postlara üç nəfərdən çox saatdar qoymasın

D) Hər bir dəyişdirici postlara beş nəfərdən çox saatdar qoymasın

E)  Hər bir dəyişdirici postlara iki nəfərdən çox saatdar qoymasın

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

41. Dəyişdiriciyə postlara getməyə, saatdarların dəyişdirilməsinə və qarovul otağına qayıtmasına nə qədər vaxt sərf edilməlidir?

A)  45 dəqiqədən çox vaxt sərf edilməməlidir

B) 30 dəqiqədən çox vaxt sərf edilməməlidir

C) Bir saatdan çox vaxt sərf edilməməlidir

D)  İki saatdan çox vaxt sərf edilməməlidir

E) Məsafədən aslı olaraq 1-5 saat arasında dəyişə bilər.

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

42. Hansı halda qarovula dəyişdirici təyin edilmir?

A)  Dəyişdirici xəstələnərsə

B)  Qarovul iki postu mühafizə edərdə

C)  Qarovul müşayiət funksiyasını yerinə yetirərsə

D) Bütün hallarda qarovula dəyişdirici təyin edilməlidir

E)  Qarovul ancaq bir postu mühafizə edirsə

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

43. Qarovul nəfərləri kimlərdən təyin edilir? Tam və dolğun cavabı seçin.

A) Çavuş və gizirlərdən

B) Gizirlərdən

C) Əsgərlərdən (matroslardan)

D) Kiçik rütbəli zabitlərdən

E) Əsgərlərdən (matroslardan) və əgər çatışmazlıq olarsa gizirlərdən

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

44. Qarovul nəfərinin sayı nədən aslıdır?

A) Həmin qarovul üçün təyin edilmiş nəqliyyat vasitələrindən

B) Həmin qarovul üçün təyin edilmiş postların sayından

C) Qarnizonun ümumi şəxsi heyətinin sayından

D) Həmin qarovul üçün təyin edilmiş dəyişdiricilərin sayından

E) Qarnizon üzrə qorunan obyetlərin strateji olmasından və sayından

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

45. Postların sutka ərzində mühafizəsi üçün neçə növbəli saatdarlar təyin edilir?

A) Üç növbəli

B) İki növbəli

C) Dörd növbəli

D) 16 saatlıq

E) Bir növbəli

Testin çətinlik dərəcəsi: çətin

İstinad:  AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

46. Postlar ancaq gecə (qaranlıq başlanandan işıqlanana qədər) və ya bu postun anbarlarının, saxlanclarının bağlanmasından açılmasına qədər mühafizə olunduqda neçə növbəli saatdarlar təyin edilir?

A)  Bir növbəli

B) Üç növbəli

C) Dörd növbəli

D)  16 saatlıq

E) İki növbəli

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

47. Qarovul heyəti nə vaxt təyin edilməlidir?

A)  Naryadın başlanmasına ən geci bir sutka qalmış

B)  Naryadın başlanmasına ən azı bir sutka qalmış

C)  Naryadın başlanmasına ən geci iki sutka qalmış

D) Naryadın başlanmasına ən geci bir həftə qalmış

E) Naryadın başlanmasına ən geci iki həftə qalmış

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

48. Dəyişdirici aşağıda qeyd olunanlardan hansına cavabdeh deyildir?

A) Onun tabelində olan saatdarları postlara qoyulmalarına

B) Onun tabeliyində olan saatdarların düzgün və sayıq xidmət etmələrinə

C) Onun tabelində olan saatdarların vaxtında dəyişdirilmələrinə

D) Qarovula tapşırılmış obyektlərin mühafizəsinə və müdafiəsinə

E) Postları düzgün qəbul etmələrinə və təhvil vermələrinə

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

49. Dəyişdirici kimə tabedir?

A) Ancaq qarovul rəisinə

B)  Hərbi hissə komandirinə

C)  Qarnizon rəisinə

D) Qarnizon rəisinin köməkçisinə

E) Qarovul rəisinə və onun köməkçisinə

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

50. Saatdar kimdir?

A)  Qarovul rəisidir

B)  Saat təmirini həyata keçirən şəxsdir

C) Sərbəst şəxsdir

D) Toxunulmaz şəxsdir

E) Cinayət törətmiş şəxsdir

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

51. Aşağıdakılardan hansı saatdarın toxunulmazlığı barədə fikrə aid deyildir?

A) Döyüş Bayrağının mühafizəsini həyata keçirərkən çexolun (şkafın) sazlığını, onlardakı möhürlərini yoxlaması  və möhürü özündə olan iz ilə tutuşdurması

B) Hüququnun və şəxsi ləyaqətinin qanunla xüsusi qorunması

C)  Ancaq müəyyən şəxslərə - qarovul rəisinə, qarovul rəisinin köməkçisinə və öz dəyişdiricisinə tabe olması

D) Vəzifəsi ilə müəyyən edilmiş tələblərin bütün şəxslər tərəfindən sözsüz yerinə yetirilməsi

E) Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri nizamnaməsində göstərilən hallarda və qaydada ona silah işlətmək hüququ verilməsi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

52. Kimin (kimlərin) saatdarları dəyişməyə və postdan çıxarmağa hüququ vardır? Tam və dolğun cavabı seçin.

A) Ancaq qarovul rəisinin

B) Ancaq qarovul rəisinin, qarovul rəisi köməkçisinin və tabe olduğu dəyişdiricinin

C) Qarovul rəisinin köməkçisinin və dəyişdiricilərin

D) Ancaq qarovul rəisinin, qarovul rəisi köməkçisinin və qarnizon üzrə  dəyişdiricilərin

E)  Ancaq qarovul rəisinin və dəyişdiricilərin

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

53. Qarovul nəfərinin postu qəbul etməsi hansı qaydada həyata keçirilməlidir?

A) Dəyişilən saatdarın iştirakı ilə şəxsən postlar tabelinə uyğun mühafizə üçün bütün qəbul olunanları nəzərdən keçirib onların mövcudluğunu və sazlığını yoxlamalıdır

B) Dəyişdiricinin (qarovul rəisinin və ya onun köməkçisinin) iştirakı ilə şəxsən postlar tabelinə uyğun mühafizə üçün bütün qəbul olunanları nəzərdən keçirib onların mövcudluğunu və sazlığını yoxlamalıdır

C) Dəyişdiricinin (qarovul rəisinin və ya onun köməkçisinin) və dəyişilən saatdarın iştirakı ilə şəxsən postlar tabelinə uyğun mühafizə üçün bütün qəbul olunanları nəzərdən keçirib onların mövcudluğunu və sazlığını yoxlamalıdır

D) Dəyişdiricinin (qarovul rəisinin və ya onun köməkçisinin) və dəyişilən saatdarın iştirakı ilə şəxsən dəyişilən saatdarın dediklərinə əsaslanaraq lazımi yerləri diqqətlə yoxlamalıdır

E) Hərbi hissə komandirinin iştirakı ilə mühafizə etdiyi obyekt üzrə bütün əmlakın mövcudluğunu və sazlığını yoxlamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

54. Aşağıdakılardan hansı saatdarın vəzifəsinə aid deyildir?

A) Postlarda, mühafizə olunan obyektlərin hasarlarında, texniki mühafizə və siqnalizasiya vasitələrində aşkar edilmiş bütün nasazlıqlar haqqında postlar cədvəlində qeydlər etmək

B) Öz postunu sayıq mühafizə və mətanətlə müdafiə etmək

C) Ayıq xidmət etmək, fikrini yayındırmamaq, silahını əlindən buraxmamaq və onu tabe olduğu şəxslər də daxil olmaqla, heç kimə verməmək

D) Təyin olunmuş marşrutla hərəkət edərək, postun yaxınlığındakı girəcəkləri və hasarları nəzərdən keçirmək, həmçinin siqnalizasiya vasitələrinin sazlığını yoxlamaq

E) Həyatı təhlükədə olsa belə, dəyişilməyincə və postdan çıxarılmayınca onu tərk etməmək (özbaşına postu tərk etmək qarovul xidmətinin nizamnamə qaydalarını pozduğuna görə hərbi cinayəti ağırlaşdıran haldır)

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

55. Aşağıdakılardan hansı saatdarın vəzifəsinə aid deyildir?

A) Ehtiyat qrupların döyüşə daim hazır olmasına, nəqliyyat, mühafizə, siqnalizasiya və rabitə vasitələrinin, qarovulun şəxsi heyətinin silahlarının və döyüş patronlarının sazlığına diqqət yetirmək

B) Postlar tabelində göstərilən və yer sahəsində işarə qoyulmuş yerdən posta yaxın məsafəyə müəyyən olunmuş şəxslərdən başqa heç kəsi buraxmamaq;

C) Qarovulun nəqliyyat vasitələrinin marşrutunu, hərəkət qrafikini, həmçinin onların fərqlənmə nişanlarını və siqnallarını bildirmək

D) Postdakı yanğınsöndürmə vasitələrindən istifadə etməyi bacarmaq

E) Obyektin hasarında (postda) hər hansı bir nasazlığı və öz postu, yaxud qonşu postun yaxınlığında hər hansı qayda-qanun pozuntusunu gördükdə, qarovul rəisini çağırmaq

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

56. Aşağıdakılardan nə saatdara qadağan deyildir?

A)  Zərurət olmadıqda patronu yuvasına yeritmək

B)  Yatmaq, oturmaq, nəyə isə söykənmək

C) Yazmaq, kitab oxumaq, mahnı oxumaq, danışmaq, yemək, içmək, papiros çəkmək

D) Təbii ehtiyaclarını yerinə yetirmək, kimdənsə şey almaq və kiməsə şey vermək

E) Yanğın söndürdüyü və ya təbii fəlakətlə mübarizə apardığı vaxtlar silahı "arxada" vəziyyətində saxlamaq

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

57. Saatdar ancaq kimlərin suallarına cavab verməlidir? Tam və dolğun cavabı seçin.

A) Sual verən hər kəsin

B)  Ancaq qarovul rəisinin

C) Qarovul rəisinin, onun köməkçisinin, qarnizon rəisinin və qonşu postun saatdarının

D)  Qarovul rəisinin və yoxlamaya gəlmiş şəxsin

E) Qarovul rəisinin, onun köməkçisinin, öz dəyişdiricisinin və yoxlamağa gəlmiş şəxslərin

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

58. Saatdar hansı halda xəbərdarlıq etmədən silah işlətməlidir? Tam və dolğun cavabı seçin.

A) Mühafizə etdiyi obyektdə təhlükə yarandıqda

B)  Özünə aşkar basqın olduqda

C)  Təhlükə hiss etdiyi bütün hallarda

D) Ancaq özünə və ya mühafizə etdiyi obyektə aşkar basqın olduğu hallarda

E) Rejim pozucuları aşkarlandıqda və obyektə hücum olduqda

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

59. Saatdar qarovul rəisindən, qarovul rəisinin köməkçisindən, öz dəyişdiricisindən və onların müşayiət etdikləri şəxslərdən başqa postlara, yaxud göstəricilərlə işarə qoyulan qadağan edilmiş sərhədə yaxınlaşan bütün şəxsləri saxlamaq üçün ilk olaraq nə etməlidir?

A) Ucadan “Dayan, geriyə” və ya “Dayan, sağdan (soldan) keç” deməlidir

B) Ucadan “Dayan, atacağam” deməlidir

C) Ucadan “Qarovul rəisi (qarovul rəisinin köməkçisi, dəyişdirici) yanıma, qalanları yerində” deməlidir

D) Səs salmamalı və həmin şəxsin zərərsizləşdirilməsi üçün bütün zəruri tədbirləri həyata keçirməlidir

E) Dərhal qarovul rəisinə məlumat verməli və özünə mövqe seçərək həmin şəxsi müşayiət etməlidir

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

60. Qaydanı pozan şəxs saatdarın “Dayan, geriyə” və ya “Dayan, sağdan (soldan) keç” tələbini yerinə yetirmədikdə saatdar nə etməlidir?

A) Bu barədə dərhal qarovul rəisinə məlumat verməli və silahın tətbiq qaydasına uyğun olaraq silahdan istifadə etməlidir

B) Onu ucadan “Dayan, atacağam” deyib xəbərdar edir və dərhal qarovul rəisini, yaxud dəyişdiricini çağırmalıdır

C) Qarovul otağına xəbər verir və diqqətini zəiflətməyərək ona tapşırılmış obyekti mühafizə etməkdə davam edir, qaydanı pozanın davranışına diqqət yetirir

D) Ucadan “Qarovul rəisi (qarovul rəisinin köməkçisi, dəyişdirici) yanıma, qalanları yerində” deməlidir

E)  Qarovul rəisini dərhal hadisə yerinə çağırmalı və havaya xəbərdarlıq atəşi açmalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

61. Qaydanı pozan şəxs saatdarın “Dayan, atacağam” tələbini məhəl qoymadıqda saatdar nə etməlidir?

A) Saatdar özünə mövqe seçərək hadisənin gedişatını nəzarətdə saxlamalı və qarovul rəisinə məlumat verməlidir

B) Saatdar bu barədə qarovul rəisinə məruzə edərək silah tətbiq etməli və hadisə yerini nəzarətə götürməlidir

C) Saatdar patronu yuvaya yeritməli və qarovul rəisini çağırmalıdır

D)  Saatdar bir daha ucadan “Dayan, geriyə” və ya “Dayan, sağdan (soldan) keç” deməlidir

E) Saatdar patronu yuvaya yeritməli  və havaya xəbərdarlıq atəşi açmalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

62. Saatdarın havaya xəbərdarlıq atəşindən sonra qaydanı pozan şəxs tələbi yerinə yetirmədikdə və posta (qadağan edilmiş sərhədi) keçməyə cəhd göstərdikdə, yaxud belə cəhddən sonra qaçmağa üz qoyduqda saatdar nə etməlidir?

A) Ona qarşı silah işlətməlidir

B)  Ancaq qarovul rəisinə məlumat verməli

C)  Bir daha ucadan “Dayan, atacağam” deməlidir

D)  Özünə mövqe seçərək həmin şəxsin hərəkət və davranışlarını qarovul rəisi gələnədə nəzarətə götürməlidir

E) Qonşu postlara məlumat verməli və kömək gələnədək özünə mövqe seçərək qaydanı pozan şəxsə nəzarət etməlidir

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

63. Saatdarın səsinə “Qarovul rəisi (qarovul rəisinin köməkçisi, dəyişdirici) gəlir” cavabı verildikdə saatdar nə əmr etməlidir?

A) “Dayan, atacağam”

B) “Qarovul silaha”

C) “Dayan, geriyə” və ya “Dayan, sağdan (soldan) keç”

D) “Qarovul rəisi (qarovul rəisinin köməkçisi, dəyişdirici) yanıma, qalanları yerində”

E) Gələn şəxsin həqiqətən qarovul rəisi (qarovul rəisinin köməkçisi, dəyişdirici) olduğunu yoxlamaq üçün onunla əlaqə saxlamalı, dəqiqləşdirməli, sonra yaxınlaşmalıdır

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

64. Postda yanğın baş verdikdə saatdar nə etməlidir? Tam və dolğun cavabı seçin.

A) Bu barədə müəyyən edilmiş siqnalla qarovul otağına dərhal xəbər verməli və mühafizə etdiyi obyektdən müşahidəsini yayındırmadan yanğının söndürülməsindən ötrü tədbir görməlidir

B) Bu barədə dərhal qarovul rəisi və qonşu postlara məlumat verməlidir

C) Bu barədə dərhal qarovul rəisi və qonşu postlara məlumat verərək yanğının söndürülməsindən ötrü tədbir görməlidir

D) Dərhal yanğının miqyası, yeri barədə ətraflı məlumat toplamalı, bu məlumatı qarovul rəisinə ötürməli və qonşu postlarıköməyə çağırmalıdır

E) Bu barədə müəyyən edilmiş siqnalla qarovul otağına dərhal xəbər verməli və yanğının terror-təxribat baxımından törədilməsi ehtimalı ilə obyektin mühafizəsini gücləndirməlidir

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

65. Mühafizə etdiyi obyektin texniki ərazisində, yaxud daxili və xarici hasarları olan obyektdə, həmçinin postun yaxınlığında yanğın baş verdikdə saatdar nə etməlidir? Tam və dolğun cavabı seçin.

A) Bu barədə müəyyən edilmiş siqnalla qarovul otağına dərhal xəbər verməli və mühafizə etdiyi obyektdən müşahidəsini yayındırmadan yanğının söndürülməsindən ötrü tədbir görməlidir

B)  Postda öz xidmətini davam etdirərək, bu barədə qarovul otağına xəbər verməlidir

C) Dərhal yanğının miqyası, yeri barədə ətraflı məlumat toplamalı, bu məlumatı qarovul rəisinə ötürməli və qonşu postları köməyə çağırmalıdır

D)  Bu barədə dərhal qarovul rəisi və qonşu postlara məlumat verərək yanğının söndürülməsindən ötrü tədbir görməlidir

E)  Xidmətinə davam edərək obyektlərin mühafizəsini gücləndirməlidir

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

66. Saatdar qəflətən xəstələndikdə, xəsarət (yaralanma, travma, kontuziya) aldıqda nə etməlidir? Tam və dolğun cavabı seçin.

A) Postda xidmətini davam etdirərək müəyyən edilmiş siqnalla dəyişdiricini və ya qarovul rəisini çağırmalıdır

B)  Dərhal bu barədə qarovul rəisinə məlumat verərək yaxınlıqdakı tibb məntəqəsinə getməlidir

C) Xidmətin sonunadək postda xidmətini davam etdirməlidir

D) Dərhal qonşu posta məlumat verərək tibb məntəqəsinə getməlidir

E) Postda xidmətini davam etdirərərək qonşu postlara məlumat verməli, tibbi yardım çantasındakı dərman və ləvazimatlardan istifadə edərək xəsarətin və ya xəstəliyinin qarşısını qismən almağa çalışmalıdır

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

67. Saatdar Döyüş Bayrağının yanındakı postda öz vəzifəsini hansı vəziyyətdə yerinə yetirməlidir?

A) Üzü bayrağa dayanaraq tərpənməz vəziyyətdə

B)  Ayaqüstə “farağat” vəziyyətində

C)  Xüsusi ayrılmış yerdə oturaq vəziyyətdə

D)  Ayaqüstə “azad” vəziyyətində

E)  Üzü bayrağa dayanaraq sərbəst vəziyyətdə

Testin çətinlik dərəcəsi: asan

İstinad:  AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

68. Hərbi qulluqçular Döyüş Bayrağına əsgəri salam verdikdə, saatdar hansı vəziyyət almalıdır?

A) “Farağat” vəziyyəti

B)  “Azad” vəziyyəti

C) Adi qaydada salamlaşmalıdır

D) Diqqətinin yayınması baxımından heç nə etməməlidir

E)  “Diqqət sağa (sola)” vəziyyəti

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

69. Alışma təhlükəsi olan saxlancları (anbarları) mühafizə edən saatdarın vəzifəsinə aşağıdakılardan hansı aid deyildir?

A) Heç kəsi saxlanca (anbara) postlar tabelində nəzərdə tutulmayan ayaqqabı və fənərlə, həmçinin soyuq və odlu silahla buraxmamaq

B) Mühafizə edilən obyektlərin yanında heç kəsin papiros çəkməsinə yol verməmək

C) Mühafizə edilən obyektlərin yanında od qalamasına, atəş açmasına yol verməmək

D)  Postlar tabelində göstərilən məsafədən yaxında nəzərdə tutulmayan işıqlandırıcı cihazlardan istifadə etməsinə yol verməmək

E)  Qarovul rəisinin, qarovul rəisi köməkçisinin və öz dəyişdiricisinin şəxsi sərəncamı olmadan həbs edilənləri kameralardan bayıra və onların yanına heç kimi buraxmamaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

70. Hansı halda qarovulun dəyişdirilməsi zamanı qarovula nəqliyyat vasitəsi verilməlidir?

A) Dəyişmə yerinə və ya dəyişmə yerindən qarovul otağına piyada getmək üçün 30 dəqiqədən çox vaxt tələb olunarsa, qarnizon rəisinin (hərbi hissə komandirinin) sərəncamı ilə

B) Dəyişmə yerinə və ya dəyişmə yerindən qarovul otağına piyada getmək üçün 20 dəqiqədən çox vaxt tələb olunarsa, qarnizon rəisinin (hərbi hissə komandirinin) sərəncamı ilə

C) Dəyişmə yerinə və ya dəyişmə yerindən qarovul otağına piyada getmək üçün 30 dəqiqədən çox vaxt tələb olunarsa, qarovul rəisinin göstərişi ilə

D) Dəyişmə yerinə və ya dəyişmə yerindən qarovul otağına piyada getmək üçün 20 dəqiqədən çox vaxt tələb olunarsa, qarovul rəisinin göstərişi ilə

E) Dəyişmə yerinə və ya dəyişmə yerindən qarovul otağına piyada getmək üçün 1 saatdan çox vaxt tələb olunarsa, qarnizon rəisinin (hərbi hissə komandirinin) sərəncamı ilə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

71. Saatdarların dəyişilməsi nə vaxt həyata keçirilməlidir? Tam və dolğun cavabı seçin.

A) Hər 2 saatdan bir, cüt yaxud tək saatların başlanğıcında

B) Hər 2 saatdan bir, cüt saatların başlanğıcında

C) Hər 3 saatdan bir, cüt yaxud tək saatların başlanğıcında

D) Hər 1 saatdan bir, cüt yaxud tək saatların başlanğıcında

E) Hər 2 saatdan bir, tək saatların başlanğıcında

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

72. Saatdarlar nə vaxt bir saatdan bir dəyişilirlər? Tam və dolğun cavabı seçin.

A) Havanın temperaturu 0 0S və daha aşağı şaxtada, kölgədə +20 0S və ondan yuxarı olduqda, habelə külək vaxtı, bayır postlarda, eləcə də qızdırılmayan binalarda duran saatdarlar

B) Havanın temperaturu -10 0S və daha aşağı şaxtada, kölgədə +20 0S və ondan yuxarı olduqda,  habelə bayır postlarda, eləcə də qızdırılmayan binalarda duran saatdarlar

C) Havanın temperaturu -20 0S və daha aşağı şaxtada, kölgədə +30 0S və ondan yuxarı olduqda,  habelə külək vaxtı, bayır postlarda, eləcə də qızdırılmayan binalarda duran saatdarlar

D) Havanın temperaturu -40 0S və daha aşağı şaxtada, kölgədə +40 0S və ondan yuxarı olduqda,  habelə külək vaxtı, bayır postlarda, eləcə də qızdırılmayan binalarda duran saatdarlar

E)  Havanın temperaturu -25 0S və daha aşağı şaxtada, kölgədə +25 0S və ondan yuxarı olduqda

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

73. Qarovul otağının girəcəyində xidmət aparan saatdarlar nə vaxt və kim tərəfindən dəyişilirlər? Tam və dolğun cavabı seçin.

A)   Hər 30 dəqiqədən bir qarnizon rəisi tərəfindən

B)  Hər 1 saatdan bir qarovul rəisi tərəfindən

C)  Hər 30 dəqiqədən bir qarovul rəisi tərəfindən

D)  Hər 1 saatdan bir qarnizon  rəisi tərəfindən

E)  Hər 45 dəqiqədən bir qarovul rəisi tərəfindən

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

74. Növbə saatdara 10-15 addımlığa qədər yaxınlaşdıqda yeni qarovul dəyişdiricisi hansı komanda verməli və nə etməlidir? Tam və dolğun cavabı seçin.

A) "Növbə — DAYAN" komandası verməli və qarovul nəfərlərinin birinə posta və onun giriş yerlərinə nəzarət etmək (növbə maşınla gəldikdə isə silahı doldurmaq və nəzarət etmək) əmri verməli

B)  "Növbə — Təhvil-təslimə başla" komandası verməli və qarovul nəfərlərindən iki nəfərə posta və onun giriş yerlərinə nəzarət etmək (növbə maşınla gəldikdə isə silahı doldurmaq və nəzarət etmək) əmri verməli

C) “Faragat” komandası verməli və  “Saatdar postu təhvil ver” göstərişi verməli

D) “Növbə — Postdan addımla marş” komandası verməli və qarovul nəfərlərinin birini böyük təyin etməli

E)  “Növbə — DAYAN” komandası verməli

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

75. Saatdar kimin və hansı komandası ilə postu təhvil verməlidir? Tam və dolğun cavabı seçin.

A)  Qarnizon rəisinin “Saatdar, postu təhvil ver” komandası ilə

B)  Yeni  qarovul dəyişdiricisinin  “Saatdar, postu təhvil ver” komandası ilə

C)  Köhnə qarovul rəisinin  “Saatdar, postu təhvil ver” komandası ilə

D)  Yeni qarovul rəisinin  “Saatdar, postu təhvil ver” komandası ilə

E) Köhnə qarovul dəyişdiricisinin  “Saatdar, postu təhvil ver” komandası ilə

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

76. Postun təhvil-təslimi zamanı hər hansı bir nasazlıq və ya uyğunsuzluq aşkar edilərsə dəyişdirici nə etməlidir?

A) Çatışmazlıq və ya uyğunsuzluğun səbəbini araşdırmalı, bu barədə köhnə və yeni qarovul rəislərinə məlumat verməli

B) Köhnə və yeni qarovul rəisləri çağırmalı

C) Postu təhvil verdikdən sonra bu barədə qarovul rəisinə məruzə etməli

D) Postun təhvilini dayandırmalı və qarovul rəisini çağırmalı

E)  Postun təhvilini dayandırmalı və qarnizon rəisinə məlumat verməli

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

77. Qarovul nəfərinin saatdar (saatdarın qarovul nəfəri) vəziyyətinə keçməsi nə ilə müəyyən edilir? Tam və dolğun cavabı seçin.

A) Onun postun qəbulu (təhvili) haqqında məlumatı ilə

B) Onun postda xidmət etmə stajı ilə

C) Postun yerləşməsi və qarovul nəfərinin posta çatdırılması ilə

D) Yeni qarovul rəisinin köhnə qarovul rəisi ilə təhvil-təsliminin başlanması ilə

E) Qarnizon rəisinin obyektlərin təhvil-təslim olunması barədə göstərişi ilə

Testin çətinlik dərəcəsi: orta

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

78. Qış vaxtı qarovul otağının temperaturu nə qədər olmalıdır?

A) +10 $^{0}$C-dən çox olmamalı

B) +10 $^{0}$C -dən az olmamalı

C) +18 $^{0}$C -dən çox olmamalı

D) +18 $^{0}$C -dən az olmamalı

E) +15 $^{0}$C -dən az olmamalı

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

79. Silah tətbiq edilməsinə hansı halda yol verilir? Tam və dolğun cavabı seçin.

A) Silah işlətmək son tədbirdir və ancaq müstəsna hallarda, yəni təxirə salınması heç cür mümkün olmadıqda, bütün başqa görülmüş tədbirlər nəticə vermədikdə və ya şəraitə görə başqa tədbirlərin görülməsi mümkün olmadıqda buna yol verilir

B) Silah işlətmək son tədbirdir və ancaq posta basqın nəticəsində hücum edən şəxslərin silahlarının alınması cəhdləri nəticəsiz qaldıqda buna yol verilir

C) Silah işlətmək son tədbirdir və ancaq müstəsna hallarda, yəni təxirə salınması mümkün olduqda, başqa hər hansı bir tədbir gürülmədikdə və ya şəraitə görə başqa tədbirlərin görülməsi mümkün olmadıqda buna yol verilir

D)  Silahın tətbiq edilməsinə yalnız qarovul rəisinin göstərişi ilə, təyin olunmuş yerlərdə və şəraitdə yol verilə bilər

E) Silahdan təhlükə hiss olunan bütün hallarda istifadə edilə bilər

Testin çətinlik dərəcəsi: asan

İstinad: AR Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi

80. Ürək dayanması zamanı nə etmək lazım deyildir? Tam və dolğun cavabı seçin.

A) Kömək üçün başqa şəxslərə müraciət etmək

B)  "Təcili yardım" çağırmaq və dispetçirə göstərilən yardım haqqında məlumat vermək

C)  Ürəyin masajına başlamaq

D)  Süni tənəffüzə başlamaq

E)  Reanimasiyanı gecikdirmək

Testin çətinlik dərəcəsi: orta

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamnı ilkin tibbi yardım məlumat kitabı

81. Ürək masajı neçə cür aparılır?

A)  Ancaq əməliyyatla

B)  Qapalı və daxili

C)  Açıq və elektriklə

D)  Açıq və xarici

E)  Açıq və qapalı

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamanı ilkin tibbi yardım məlumat kitabı

82. Huşun itməsi zamanı nə etmək lazımdır?Tam və dolğun cavabı seçin.

A)  "Təcili yardım" çağırmaq və  zərərçəkənin başının altına nə isə qoymaq

B)  “Təcili yardım” çağırmaq və  zərərçəkəni arxa üstə uzanmış halda qoymaq

C) “Təcili yardım” çağırmaq və  zərərçəkənə su vermək

D)  “Təcili yardım” çağırmaq və  zərərçəkənin başını arxaya çəkmək

E)  Zərərçəkənə süni tənəffüs vermək

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamanı ilkin tibbi yardım məlumat kitabı

83. Aşağıdakılardan hansı huşun itməsi əlamətlərinə aid deyildir? Tam və dolğun cavabı seçin.

A) Tənəffüsün çətinləşməsi, təngənəfəslik

B)  Orientasiyanın itməsi

C)  Ağrıya qarşı reaksiyanın olmaması

D) Ətrafda olan qıcıqlandırıcılara reaksiyanın olmaması

E)  Yuxulu vəziyyət

Testin çətinlik dərəcəsi: asan

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamanı ilkin tibbi yardım məlumat kitabı

84. Aşağıdakılardan hansı zəhərlənmə əlamətlərinə aid deyildir? Tam və dolğun cavabı seçin.

A)  Yuxuya meyillilik və bayılma

B)  Baş və qarın ağrıları

C)  İshal, qusma

D) Tənəffüsün çətinləşməsi

E) Ağızda quruluq və susuzluq hissi

Testin çətinlik dərəcəsi: asan

İstinad:  Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamanı ilkin tibbi yardım məlumat kitabı

85. Gün vurma zamanı zərərçəkənə nə etmək lazım deyildir? Tam və dolğun cavabı seçin.

A)  Zərərçəkənin ayaqlarını bir qədər yuxarı qaldırmaq

B) "Təcili yardım" çağırmaq

C) Zərərçəkəni kölgədə yerləşdirmək

D)  Zərərçəkənin paltarını çıxarmaq

E) Sürətlə və tez bir zamanda hərarəti aşağı salmaq

Testin çətinlik dərəcəsi: orta

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamanı ilkin tibbi yardım məlumat kitabı

86. Aşağıdakılardan hansı gün vurma əlamətlərinə aid deyildir? Tam və dolğun cavabı seçin.

A) Yuxululuq, dərinin bir qədər avazımış və şişkin olması

B)  Zəiflik, baş ağrıları, baş gicəllənmə

C)  Ağızda quruluq və susuzluq hissi

D)  Hərarət, bir qədərdən sonra qulaqda səs-küy

E)  Gözün dumanlanması, ürək döyünməsi və bayılma

Testin çətinlik dərəcəsi: orta

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamanı ilkin tibbi yardım məlumat kitabı

87. Mexaniki travmalar neçə cür olur və hansılardır? Tam və dolğun cavabı seçin.

A)  4 cür, 1-ci, 2-ci, 3-cü və 4-cü dərəcəli

B)  2 cür, 1-ci və 2-ci dərəcəli

C) 2 cür, açıq və qapalı

D)  2 cür, açıq və xarici

E)  2 cür, daxili və qapalı

Testin çətinlik dərəcəsi: asan

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamanı ilkin tibbi yardım məlumat kitabı

88. Kəllə travması zamanı nə etmək lazımdır? Tam və dolğun cavabı seçin.

A)  Zərərçəkənin lazımsız olaraq yerini dəyişmək

B)  Zərərçəkəni tənha qoymaq

C) Zərərçəkənə yemək və içmək vermək

D)  Yaraya dərin yeridilmiş yad cismi çıxartmaq

E) Travmanın mexanizmini aydınlaşdırmaq

Testin çətinlik dərəcəsi: orta

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamanı ilkin tibbi yardım məlumat kitabı

89. Aşağıdakılardan hansı kəllə travmasının əlamətlərinə aid deyildir?

A)  Dəri səthinin avazıması və ya qismən göyərməsi

B)  Kəllə sümüklərinin və başın dəri səthinin zədələnməsi

C)  Burundan və ya qulaqdan şəffaf mayenin və qanın axması

D) Nitqin və görmənin pozulması və beyinin dumanlanması

E)  Ürək bulanma, qusma, tənəffüsün pozulması

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamanı ilkin tibbi yardım məlumat kitabı

90. Aşağıdakılardan hansı onurğa sütununu taravması əlamətlərinə aid deyildir?

A) Bədən hərarətinin aşağı olması

B)  Bel və boyun nahiyyəsində ağrı hissi

C)  Tənəffüsün pozulması və əzələlərin zəifləməsi

D)  Sidik kisəsi və bağırsaqların funksiyalarının pozulması

E)  Ətrafda keyləşmə və hissiyatın itməsi, huşun itməsi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamanı ilkin tibbi yardım məlumat kitabı

91. Mənşəyindən asılı olaraq yanıqların neçə növü var və hansılardır? Tam və dolğun cavabı seçin.

A)  3,  ağır, orta və yüngül yanıqlar

B)  4, kimyəvi, texniki, elektron və biokimyəvi təsir nəticəsində yaranmış yanıqlar

C)  4, 1-ci, 2-ci, 3-cü və 4-cü dərəcəli yanıqlar

D)  2, açıq və qapalı yanıqlar

E) 4, kimyəvi, termiki, elektrik və radiasiya təsiri nəticəsində yaranmış yanıqlar

Testin çətinlik dərəcəsi: orta

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamanı ilkin tibbi yardım məlumat kitabı

92. Zədələnmənin dərinlik dərəcəsinə görə yanıqların neçə növü var və hansılardır?

A) 4 növü, 1-ci, 2-ci, 3-cü və 4-cü dərəcəli yanıqlar

B) 4 növü, kimyəvi, texniki, elektron və biokimyəvi təsir nəticəsində yaranmış yanıqlar

C) 4 növü, kimyəvi, termiki, elektrik və radiasiya təsiri nəticəsində yaranmış yanıqlar

D) 2 növü , açıq və qapalı yanıqlar

E)  3 növü, 1-ci, 2-ci və 3-cü dərəcəli yanıqlar

Testin çətinlik dərəcəsi: orta

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamanı ilkin tibbi yardım məlumat kitabı

93. 1-ci dərəcəli yanıqlar nə ilə səciyyələnir?

A) Dəri, əzələ,vətər və sümük toxumalarının zədələnməsi

B) Kəskin ağrılar, dərinin hədsiz qızarması və epidermanın qovuqcuqlar şəkilində ayrılması

C) Dəri hüceyrələrinin və qan zülallarının qatılaşması, bərk qasnağın əmələ gəlməsi

D) Dərinin qızarması, şişkinlik və ağrı hissi

E) Dərinin göyərməsi, kəskin ağrı və iltihab

Testin çətinlik dərəcəsi: asan

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamanı ilkin tibbi yardım məlumat kitabı

94. 3-ci dərəcəli yanıqlar nə ilə səciyyələnir?

A) Dəri hüceyrələrinin və qan zülallarının qatılaşması, bərk qasnağın əmələ gəlməsi

B) Kəskin ağrılar, dərinin hədsiz qızarması və epidermanın qovuqcuqlar şəkilində ayrılması

C) Dərinin qızarması, şişkinlik və ağrı hissi

D) Dəri, əzələ,vətər və sümük toxumalarının zədələnməsi

E) Dərinin göyərməsi, kəskin ağrı və iltihab

Testin çətinlik dərəcəsi: asan

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamanı ilkin tibbi yardım məlumat kitabı

95. Yanıq zamanı nə etmək lazım deyildir?

A) Rahat vəziyyət yaratmaq

B) Yanıq səthi geniş olduqda, zərərçəkənin tənəffüsü pozulduqda, huşun qarışması-şok yarandığı vaxt "təcili yardım" çağırmaq

C) Yanıq səthə infeksiyanın düşməsinə diqqət etmək

D)  Yanıq səthi travma almaqdan qorumaq

E)  Yanıq səthə bitgi yağı, məlhəm və toz səpmək

Testin çətinlik dərəcəsi: orta

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamnı ilkin tibbi yardım məlumat kitabı

96. Kimyəvi yanıq zamanı nə etmək lazımdır ?

A) Yanıq səthi 15-20 dəqiqə soyuq su ilə yumaq

B) Yanıq səthə bitgi yağı, məlhəm və toz səpmək

C)  Yanıq səthdə yaranmış qovuqcuqları partladaraq ona yod sürtmək

D)  Yanıq səthindən geyim hissələrini qoparmaq

E)  Yanıq səthini ovuşdurmaq

Testin çətinlik dərəcəsi: orta

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamanı ilkin tibbi yardım məlumat kitabı

97. Elektrik cərəyanından zədələnmə zamanı nə etmək lazım deyildir?

A)  “Təcili yardım” çağırmaq

B) Cərəyanı söndürmək (ayırmaq)

C)  Ürək döyünmələrini çox diqqətlə dinləmək

D) Zərərçəkəni xəstəxananın kardioloji şöbəsinə yerləşdirmək

E)  Zərərçəkəni torpaqla örtmək

Testin çətinlik dərəcəsi: orta

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamanı ilkin tibbi yardım məlumat kitabı

98. Aşağıdakılardan hansı zəhərli ilan çalması zamanı əlamətlərə aidir?

A) Arteryal təzyiqin aşağı düşməsi

B)  Burundan, qulaqdan, gözdən qanaxmalar

C) Dərinin, dodağın və selikli qişanın avazımış olması

D)  Qulaqda səs, gözlərdə qığılcımların olması və dumanlı görmə

E) Limfatik damarlar boyu tezliklə qırmızı zolaqların yaranması

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamanı ilkin tibbi yardım məlumat kitabı

99. Zədələnmiş qan damarlarından asılı olaraq qanaxmanın neçə növü olur və hansılardır? Tam və dolğun cavabı seçin.

A) 4 növ, arterial, venoz, kapilyar və parenximatoz

B)  3 növ,  arterial, venoz, kapilyar

C)  2 növ, arterial və venoz

D)  2 növ, daxili və xarici

E)  3 növ, arterial, venoz və serroz

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamanı ilkin tibbi yardım məlumat kitabı

100. İnsan eyni vaxtda nə qədər qan itirdikdə ölümlə nəticələnə bilər? Tam və dolğun cavabı seçin.

A)  Uşaqlar 100-200 ml, böyüklər 3-3,5 litr

B) Uşaqlar 300-400 ml, böyüklər 2-2,5 litr

C)  Uşaqlar 1-1,5 litr,  böyüklər 1-2 litr

D)  Uşaqlar 100-200 ml, böyüklər 700-900 ml

E)  Uşaqlar 350-500 ml, böyüklər 1-1,5 litr

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Bədbəxt hadisələr və fövqəladə vəziyyətlər zamanı ilkin tibbi yardım məlumat kitabı

101. 9 mm-lik “Makarov” tapançasının təyinatı hansıdır? Tam və dolğun cavabı seçin.

A) Fərdi tabel silahı olub, hücum və özünü müdafiə edərək rəqibi yaxın məsafədən məhv etmək üçün nəzərdə tutulmuşdur

B) Fərdi tabel silahı olub, hücum və özünü müdafiə edərək rəqibi uzaq məsafədən məhv etmək üçün nəzərdə tutulmuşdur

C) Fərdi döyüş silahı olub, özünü müdafiə etmək üçün nəzərdə tutulmuşdur

D) Fərdi tabel silahı olub, düşmənin canlı qüvvəsini və döyüş texnikasını yaxın məsafədən məhv etmək üçün nəzərdə tutulmuşdur

E) Fərdi tabel silahı olub, ancaq özünü müdafiə edərək rəqibi yaxın məsafədən məhv etmək üçün nəzərdə tutulmuşdur

Testin çətinlik dərəcəsi: orta

İstinad: “Makarov” tipli tapançası haqqında məlumat

102. 9 mm-lik “Makarov” tipli tapançanın gülləsinin öldürücü qüvvəsi hansı məsafəyədəkdir?

A) 1 km qədər

B) 400 metrə qədər

C) 50 metrə qədər

D) 350 metrə qədər

E) 200 metrə qədər

Testin çətinlik dərəcəsi: orta

İstinad: “Makarov” tipli tapançanın taktiki-texniki göstəriciləri

103. 9 mm-lik “Makarov” tipli tapança 1 dəqiqədə neçə atəş açmağa malikdir?

A) 20 atəş

B) 30 atəş

C) 60 atəş

D) 35 atəş

E) 120 atəş

Testin çətinlik dərəcəsi: orta

İstinad: “Makarov” tipli tapançanın taktiki-texniki göstəriciləri

104. Aşağıdakılardan hansı buraxılış rejiminin pozulması halına aiddir?

A) Obyekt əməkdaşının içkili vəziyyətində işə gəlməsi

B) Obyekt əməkdaşlarının obyektdə mübahisə etməsi

C) Obyekt əməkdaşlarının təyin olunmamış yerlərdə siqaret çəkməsi

D) Obyekt əməkdaşlarının obyektdə nəqliyyat vasitəsini təyin olunmuş sürətdən yüksək idarə etməsi

E) Əraziyə girişin şlaqbaum və turniketlə təchiz edilməməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunu

105. Kənar şəxslər obyekt ərazisinə hansı qaydada daxil ola bilər?

A) Obyekt rəhbərinin yazılı sərəncamı ilə xüsusi buraxılış vərəqəsi əsasında

B) Şəxsiyyət vəsiqəsini təqdim etməklə buraxılış vərəqəsi əsasında

C) Obyekt rəhbərinin şifahi göstərişi əsasında

D) Mühafizəçiyə özünü təqdim edib, kimin yanına gəldiyini dedikdən sonra həmin şəxslə əlaqə saxlanılmalı və onun şifahi sözünə görə

E) Kənar şəxsin obyekt ərazisinə ümumiyyətlə buraxılması mümkün deyildir.

Testin çətinlik dərəcəsi: asan

İstinad: Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunu

106. Neft məhsullarının nə ilə söndürülməsi məqsədəuyğundur?

A) Köpüklü od söndürənlə

B) Karbonlu od söndürənlə

C) Tozlu od söndürənlə

D) Su ilə

E) Bioloji od söndürənlə

Testin çətinlik dərəcəsi: asan

İstinad: lkin yanğınsöndürmə vasitələri haqqında məlumat

107. Silah nəyə deyilir?

A) Canlı qüvvənin və digər obyektlərin, texnikanın, tikililərin məhv edilməsi üçün nəzərdə tutulmuş, yaxud işarə vermə üçün nəzərdə tutlmuş qurğu və vasitəyə

B) Canlı qüvvənin və böyük obyektlərin, texnikanın, tikililərin məhv edilməsi üçün nəzərdə tutulmuş, yaxud işarə vermə üçün nəzərdə tutlmuş qurğu və vasitəyə

C) Canlı qüvvənin və digər obyektlərin, texnikanın, tikililərin məhv edilməsi üçün nəzərdə tutulmamış, yaxud işarə vermə üçün nəzərdə tutlmuş qurğu və vasitəyə

D) Canlı qüvvənin və digər obyektlərin, texnikanın, tikililərin məhv edilməsi üçün nəzərdə tutulmuş, yaxud yaralamaq üçün nəzərdə tutlmuş qurğu və vasitəyə

E) Canlı qüvvənin və digər obyektlərin, texnikanın, tikililərin məhv edilməsi üçün nəzərdə tutulmuş, yaxud işarə vermə üçün nəzərdə tutlmuş alətə

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Xidməti və mülki silah haqqında Azərbaycan Respublikasının qanunu. №420-IQ. 30.12.1997

108. Xidməti silah nəyə deyilir?

A) Vəzifəlilərin həyat və sağlamlığının qorunması, mülkiyyətin, əmlakın, yüklərin mühafizəsi ilə bağlı vəzifələri yerinə yetirən şəxslər üçün istifadə olunan silaha

B)  İnsanların həyat və sağlamlığının qorunması, mülkiyyətin, əmlakın, yüklərin mühafizəsi ilə bağlı vəzifələri yerinə yetirən şəxslər üçün istifadə olunan silaha

C)  İnsanların həyat və sağlamlığının qorunması, mülkiyyətə, əmlaka, yüklərə nəzarət ilə bağlı vəzifələri yerinə yetirən şəxslər üçün istifadə olunan silaha

D)  İnsanların həyat və sağlamlığının qorunması, mülkiyyətin, əmlakın, yüklərin mühafizəsi ilə bağlı vəzifələrin təmini üçün istifadə olunan silaha

E)  İnsanların həyat və sağlamlığının qorunması, mülkiyyətin, əmlakın, yüklərin mühafizəsi ilə bağlı vəzifələri yerinə yetirən şəxsləri qorumaq üçün istifadə olunan silaha

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: Xidməti və mülki silah haqqında

109. Odlu silah hansıdır?

A)  Barıtın və ya digər alışan maddələrin yanmasından yaranan enerji hesabına mərmisi istiqamətlənmiş hərəkət edərək uzaq məsafədən hədəfi mexaniki zədələmək və ya sıradan çıxarmaq təyinatına malik olan silah

B)  Barıtın və ya digər alışan maddələrin yanmasından yaranan enerji hesabına mərmisi istiqamətlənmiş hərəkət edərək qısa məsafədən hədəfi mexaniki zədələmək və ya sıradan çıxarmaq təyinatına malik olan silah

C)  Barıtın və ya digər alışan maddələrin yanmasından yaranan enerji hesabına mərmisi istiqamətlənmiş hərəkət edərək müəyyən məsafədən hədəfi fiziki zədələmək və ya sıradan çıxarmaq təyinatına malik olan silah

D)  Barıtın və ya digər alışan maddələrin yanmasından yaranan enerji hesabına mərmisi istiqamətlənmiş hərəkət edərək müəyyən məsafədən hədəfi mexaniki zədələmək və ya sıradan çıxarmaq təyinatına malik olan silah

E)  Barıtın və ya digər partlayan maddələrin yanmasından yaranan enerji hesabına mərmisi istiqamətlənmiş hərəkət edərək müəyyən məsafədən hədəfi mexaniki zədələmək və ya sıradan çıxarmaq təyinatına malik olan silah

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: Xidməti və mülki silah haqqında Azərbaycan Respublikasının qanunu. №420-IQ. 30.12.1997

110. Silah istifadəçisi kimdir?

A) Qanunla müəyyən edilmiş qaydada təlim məqsədilə istifadə edilməsi üçün silah verilmiş şəxs

B) Qanunla müəyyən edilməmiş qaydada ov məqsədilə istifadə edilməsi üçün silah verilmiş şəxs

C) Qanunla müəyyən edilmiş qaydada təyinatı üzrə istifadə edilməsi üçün silah verilmiş şəxs

D) Qanunla müəyyən edilmiş qaydada idman məqsədi ilə istifadə edilməsi üçün silah verilmiş şəxs

E) Qanunla müəyyən edilmiş qaydada kolleksiya edilməsi üçün silah verilmiş şəxs

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: Xidməti və mülki silah haqqında Azərbaycan Respublikasının qanunu. №420-IQ. 30.12.1997

111. Silah hansı şəraitdə saxlanılmalıdır?

A) Onun mühafizəsini, təhlükəsizliyini təmin edən və şübhəli şəxslər tərəfindən onun ələ keçirilməsini istisna edən şəraitdə

B) Onun mühafizəsini, təhlükəsizliyini təmin edən və kənar şəxslər tərəfindən onun ələ keçirilməsini istisna etməyən şəraitdə

C) Onun istifadəsini, təhlükəsizliyini təmin edən və kənar şəxslər tərəfindən onun ələ keçirilməsini istisna edən şəraitdə

D) Onun mühafizəsini, təhlükəsizliyini təmin edən və kənar şəxslər tərəfindən onun ələ keçirilməsini istisna edən şəraitdə

E) Onun mühafizəsini, təhlükəsizliyini təmin edən və kənar şəxslər tərəfindən onun tətbiqini istisna edən şəraitdə

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: Xidməti və mülki silah haqqında Azərbaycan Respublikasının qanunu. №420-IQ. 30.12.1997

112. Xidməti silah nə vaxt tətbiq edilə bilər?

A) Xidməti vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar

B)  Xidməti vəzifələrin yerinə yetirilməsindən əvvəl

C)  Xidməti vəzifələrin yerinə yetirilməsindən sonra

D)  Bütün vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar

E)  Döyüş tapşırığının yerinə yetirilməsi ilə əlaqədar

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Xidməti və mülki silah haqqında Azərbaycan Respublikasının qanunu. №420-IQ. 30.12.1997

113. Silahın hansı növləri var?

A)  Soyuq və isti

B)  Kəsici və odlu

C)  Atıcı və odlu

D)  Soyuq və atəş

E)  Soyuq və odlu

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Xidməti və mülki silah haqqında Azərbaycan Respublikasının qanunu. №420-IQ. 30.12.1997

114. Soyuq silahlara aid olanı göstərin.

A)  Bıçaq, ağac parçası, kəsici alətlər, sağlamlığa zərər verə biləcək bütün bərk əşyalar və s.

B)  Bıçaq, şüşə parçası, kəsici alətlər, sağlamlığa zərər verə biləcək bütün bərk əşyalar və s.

C)  Bıçaq, şüşə parçası, atıcı alətlər, sağlamlığa zərər verə biləcək bütün bərk əşyalar və s.

D)  Bıçaq, şüşə parçası, yanar alətlər, sağlamlığa zərər verə biləcək bütün bərk əşyalar və s.

E)  Bıçaq, şüşə parçası, kəsici alətlər, sağlamlığa zərər verə biləcək bütün yumşaq əşyalar və s.

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Xidməti və mülki silah haqqında Azərbaycan Respublikasının qanunu. №420-IQ. 30.12.1997

115. Odlu silahların hansı növləri var?

A) Yivli, yivsız

B) Avtomat, yivli

C) Yivli, idman

D) Yanar, yivsız

E) Yivli, mərmili

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: Xidməti və mülki silah haqqında Azərbaycan Respublikasının qanunu. №420-IQ. 30.12.1997

116. Silahda kalibr nədir?

A) Silahın lülə kanalının diametri

B) Silahın qundaq kanalının diametri

C) Silahın lülə kanalının uzunluğu

D) Silahın lülə kanalının eni

E) Silahın gülləsinin uzunluğu

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: Xidməti və mülki silah haqqında Azərbaycan Respublikasının qanunu. №420-IQ. 30.12.1997

117. Partlayıcı maddə nədir?

A) Tezliklə özüyayılan, fiziki çevrilmə xüsusiyyətli partlamaya malik kimyəvi maddələrdən ibarət maddədir

B) Tezliklə özüyayılan, məhdud çevrilmə xüsusiyyətli partlamaya malik kimyəvi maddələrdən ibarət maddədir

C) Tezliklə özüyayılan, kimyəvi dayanıqlı xüsusiyyətli partlamaya malik kimyəvi maddələrdən ibarət maddədir

D)  Tezliklə özüyığılan, kimyəvi çevrilmə xüsusiyyətli partlamaya malik kimyəvi maddələrdən ibarət maddədir

E)  Tezliklə özüyayılan, kimyəvi çevrilmə xüsusiyyətli partlamaya malik kimyəvi maddələrdən ibarət maddədir

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Xidməti və mülki silah haqqında Azərbaycan Respublikasının qanunu. №420-IQ. 30.12.1997

118. Partlayıcı maddələr hansıdır?

A)  Trofil, ammonitlər, plastitlər, elastitlər, tüstülü və tüstüsüz barıt, bərk raket yanacağı

B)  Trotil, ammonyaklar, plastitlər, elastitlər, tüstülü və tüstüsüz barıt, nüvə raket yanacağı

C)  Trotil, ammonitlər, plastitlər, elastitlər, tüstülü və tüstüsüz barıt, bərk raket yanacağı

D)  Trotil, ammonitlər, plastiklər, elastitlər, tüstülü və tüstüsüz barıt, qaz raket yanacağı

E)  Trotil, ammonitlər, plastiklər, elastiklər, tüstülü və tüstüsüz barıt, maye raket yanacağı

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Xidməti və mülki silah haqqında Azərbaycan Respublikasının qanunu. №420-IQ. 30.12.1997

119. Terror nə deməkdir?

A)  Qorxu, ölüm dəhşət əmələ gətirmək

B)  Qorxu, partlama dəhşət əmələ gətirmək

C)  Qorxu, vahimə, partlayış əmələ gətirmək

D)  Qorxu, vahimə, qarışıqlıq əmələ gətirmək

E)  Qorxu, vahimə, dəhşət əmələ gətirmək

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Terrorçuluğa qarşı mübarizə haqqında Azərbaycan Respublikasının qanunu. №687-IQ. 18.06.1999

120. Mühafizə olunan obyekt nəyə deyilir?

A) Mühafizə bölməsi tərəfindən hüquqa zidd olmayan qəsdlərdən mühafizə edilən daşınmaz və burada yerləşən daşınan əmlaka

B) Mühafizə bölməsi tərəfindən hüquqa zidd qəsdlərdən mühafizə edilən daşınmaz və kənarda yerləşən daşınan əmlaka

C) Mühafizə bölməsi tərəfindən hüquqa zidd qəsdlərdən mühafizə edilən daşınmaz və bütün daşınan əmlaka

D) Mühafizə bölməsi tərəfindən hüquqa zidd qəsdlərdən mühafizə edilən daşınmaz və burada yerləşən daşınan əmlaka

E) Mühafizə bölməsi tərəfindən hücum qəsdlərindən mühafizə edilən daşınmaz və burada yerləşən daşınan əmlaka

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: www.qartalss.az/dokuments/xthk (29.01.2019) / Xüsusi taktiki hazırlıq

121. Mühafizə olunan obyektin hüdudlarında müəyyən edilən qayda necə adlanır?

A) Yoxlama rejimi

B) Nəzarət rejimi

C) Obyektdaxili rejim

D) Mühafizə rejimi

E) Buraxılış rejimi

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: www.qartalss.az/dokuments/xthk (29.01.2019) / Xüsusi taktiki hazırlıq

122. “Atıcı” vəzifəsi üzrə işçi seçimində namizəddə aşağıda göstərilən xəstəliklərdən hansı olduqda qəbul edilmir?

A) Ruhi, alkoqolizm, narkomanlıq

B) Ruhi, alkoqolizm, narkomanlıq, şəkər

C) Ruhi, alkoqolizm, quş qripi, narkomanlıq

D) Ruhi, xərçəng, alkoqolizm, narkomanlıq

E) Ruhi, alkoqolizm, narkomanlıq, soyuqdəymə

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: www.qartalss.az/dokuments/xthk (29.01.2019) / Xüsusi taktiki hazırlıq

123. Obyektdən sənədsiz neçə kiloqram mal-materialı çıxartmaq olar?

A) 3 kq-dək malı çıxarmaq olar

B) 1 kq-dək malı çıxarmaq olar

C) 2 kq-dək malı çıxarmaq olar

D) Yalnız qaimə ilə çıxarılır

E) 5 kq-dək malı çıxarmaq olar

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: ARDNŞ tabeliyindəki müəssisə vətəşkilatlarda buraxılış rejimi və obyektdaxili rejim qaydaları haqqında nümunəvi təlimat. №126. 27.08.2007

124. Obyektin ərazisinə daxil olmağa hüquq verən sənəd hansıdır?

A) Qalma vərəqələri

B) Saxlanc vərəqələri

C) Buraxılış vərəqələri

D) Qeydiyyat vərəqələri

E) Çıxarış vərəqələri

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: ARDNŞ tabeliyindəki müəssisə vətəşkilatlarda buraxılış rejimi və obyektdaxili rejim qaydaları haqqında nümunəvi təlimat. №126. 27.08.2007

125. Cinayət əməlləri hansı qanunvericilik aktlarında öz əksini tapir?

A) Azərbaycan Respublikasının hüquq pozuntular toplusunda

B)  Azərbaycan Respublikasının məsuliyyət kodeksində

C)  Azərbaycan Respublikasının konstitusiyasında

D)  Azərbaycan Respublikasının cinayət məcəlləsində

E)  Azərbaycan Respublikasının inzibati xətalar məcəlləsində

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Azərbaycan Respublikasının Cinayət məcəlləsi.05.07.2011

126. İnzibati xətalar hansı qanunvericilik aktlarında öz əksini tapir?

A)  Azərbaycan Respublikasının konstitusiyasında

B)  Azərbaycan Respublikasının cinayət məcəlləsində

C)  Azərbaycan Respublikasının inzibati xətalar məcəlləsində

D)  Azərbaycan Respublikasının məsuliyyət kodeksində

E)  Azərbaycan Respublikasının hüquq pozuntular toplusunda

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: İnzibati hüquq və terminlər.anl/az/el/kitab/2013/25/1957.pdf 15.01.2019

127.  Obyektə qadağan olunmuş mallar gətirildiyi zamanı nə edilməlidir?

A)  Qarşısını almaq, polisə, qarovul otağına məlumat vermək, jurnalda müvafiq qeydlər aparmaq

B)  Həbs etmək, polisə, obyekt rəhbərinə məlumat vermək, jurnalda müvafiq qeydlər aparmaq

C)  Qarşısını almaq, polisə məlumat vermək, jurnalda müvafiq qeydlər aparmaq

D)  Qarşısını almaq, obyekt rəhbərinə məlumat vermək, jurnalda müvafiq qeydlər aparmaq

E)  Qarşısını almaq, heç kimə məlumat verməmək, jurnalda müvafiq qeydlər aparmaq

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: https://docplayer.ru/28945135-Programma-professionalnoy-podgotovki-ohrannikov.html (16.01.2019) / Программа профиссиональной подготовки охранников

128.  Talama nəyə deyilir?

A)  Özgənin əmlakını tamah məqsədilə hüquqa zidd və əvəzsiz olaraq, həmin əmlakın mülkiyyətçisinə və başqa sahibinə ziyan vurmaqla götürmə, özünün xeyrinə keçirməsinə

B)  Özgənin əmlakını tamah məqsədilə hüquqa zidd və əvəzsiz olaraq, həmin əmlakın mülkiyyətçisinə və başqa sahibinə ziyan vurmaqla götürmə, başqa şəxslərin xeyrinə keçirilməsinə

C)  Özgənin əmlakını tamah məqsədilə hüquqa zidd və əvəzli olaraq, həmin əmlakın mülkiyyətçisinə və başqa sahibinə ziyan vurmaqla götürmə, özünün və ya başqa şəxslərin xeyrinə keçirməsinə

D)  Özgənin əmlakını tamah məqsədilə əxlaqa zidd və əvəzsiz olaraq, həmin əmlakın mülkiyyətçisinə və başqa sahibinə ziyan vurmaqla götürmə, özünün və ya başqa şəxslərin xeyrinə keçirməsinə

E)  Özgənin əmlakını tamah məqsədilə hüquqa zidd və əvəzsiz olaraq, həmin əmlakın mülkiyyətçisinə və başqa sahibinə ziyan vurmaqla götürmə, özünün və ya başqa şəxslərin xeyrinə keçirməsinə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İstinad: Azərbaycan Respublikasının Cinayət məcəlləsi. 05.07.2011

129.  Oğurluq nədir?

A)  Mənimsəmənin (götürmənin) gizli forması

B)  Talamanın (götürmənin) açıq forması

C)  Talamanın (götürmənin) gizli forması

D)  Mənimsəmənin (götürmənin) açıq forması

E)  Talamanın (götürmənin) geniş forması

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Azərbaycan Respublikasının Cinayət məcəlləsi. 05.07.2011

130. Anbar nəyə deyilir?

A) Maddi nemətlərin qorunması üçün xüsusi olaraq inşaa edilmiş binalar, qurğular, habelə xüsusi mühafizə vasitələri ilə təchiz edilmiş saxlama yerlərinə

B) Maddi nemətlərin qorunması üçün xüsusi olaraq təchiz edilmiş binalar, qurğular, habelə xüsusi mühafizə vasitələri ilə təchiz edilmiş saxlama yerlərinə

C) Maddi nemətlərin gizlədilməsi üçün xüsusi olaraq təchiz edilmiş binalar, qurğular, habelə xüsusi mühafizə vasitələri ilə təchiz edilmiş saxlama yerlərinə

D) Maddi nemətlərin saxlanması üçün xüsusi olaraq inşaa edilmiş binalar, qurğular, habelə xüsusi mühafizə vasitələri ilə təchiz edilmiş saxlama yerlərinə

E) Maddi nemətlərin saxlanması üçün xüsusi olaraq təchiz edilmiş binalar, qurğular, habelə xüsusi mühafizə vasitələri ilə təchiz edilmiş saxlama yerlərinə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İstinad: https://docplayer.ru/28945135-Programma-professionalnoy-podgotovki-ohrannikov.html (16.01.2019) / Программа профиссиональной подготовки охранников

131. İlkin yanğınsöndürmə vasitələrini göstərin.

A) Odsöndürən, yanğın şlanqı, təcridedici örtük

B) Odsöndürən, yanğın kranı, təcridedici örtük

C) Odsöndürən, yanğın kranı, su, vedrə

D) Odsöndürən, yanğın kranı, qum, vedrə

E) Odsöndürən, yanğın kranı, örtük, qum

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: www.anl/az/el/kitab/2013/25/1957.pdf (15.01.2019) / İnzibati hüquq və terminlər

132. Xidmət zamanı obyektin yaxınlığında bir neçə şəxsin iştirakı ilə dava baş verdikdə nə edilməlidir?

A) Sakitləşdirməli, yola salmalı

B) Müdaxilə edib getmələrini tələb etməli

C)  Polisə və rəhbərinə zəng etməli

D)  Qapını açmadan, polisə zəng etməli

E)  Xəbərdarlıq edib, polisə zəng etməli

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İstinad: https://docplayer.ru/28945135-Programma-professionalnoy-podgotovki-ohrannikov.html (16.01.2019) / Программа профиссиональной подготовки охранников

133.  Sıra nəyə deyilir?

A)  Hərbi qulluqçuların, bölmələrin və hissələrin maşınlarda birgə hərəkəti üçün Nizamnamə ilə müəyyən edilmiş düzülüşünə

B)  Hərbi qulluqçuların, bölmələrin və hissələrin piyada və maşınlarda birgə hərəkəti üçün Nizamnamə ilə müəyyən edilmiş düzülüşünə

C)  Hərbi qulluqçuların, bölmələrin və hissələrin piyada birgə hərəkəti üçün Nizamnamə ilə müəyyən edilmiş düzülüşünə

D)  Hərbi qulluqçuların, bölmələrin və hissələrin piyada və maşınlarda birgə hərəkəti üçün Nizamnamə ilə müəyyən edilmiş duruşuna

E)  Hərbi qulluqçuların, şəxslərin və hissələrin piyada və maşınlarda birgə hərəkəti üçün Nizamnamə ilə müəyyən edilmiş düzülüşünə

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Azərbaycan Respublikasının Sıra Nizamnaməsi. Müdafiə Nazirinin 73 №-li 24.12.2014 il qərarı

134. Cərgə nəyə deyilir?

A)  Hərbi qulluqçuların biri o birinin qarşısında düzüldüyü sıraya

B)  Hərbi qulluqçuların biri o birinin sağında nizamlı düzüldüyü sıraya

C)  Hərbi qulluqçuların biri o birinin solunda nizamsız düzüldüyü sıraya

D)  Hərbi qulluqçuların biri o birinin arxasında bir xətt üzərində düzüldüyü sıraya

E)  Hərbi qulluqçuların biri o birinin yanında bir xətt üzərində düzüldüyü sıraya

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Azərbaycan Respublikasının Sıra Nizamnaməsi. Müdafiə Nazirinin 73 №-li 24.12.2014 il qərarı

135. Nəzarət buraxılış məntəqəsindən şəxslərin, gətirilən və çıxarılan mal-materialların keçməsinə hüquq verən sənəd hansıdır?

A) Buraxılış vərəqələri və ya qaimələr

B) Buraxılış əmri və ya qaimələr

C) Buraxılış sərəncamı və ya qaimələr

D) Buraxılış vərəqələri və ya əmrlər

E) Buraxılış vərəqələri və ya göstərişlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: ARDNŞ tabeliyindəki müəssisə vətəşkilatlarda buraxılış rejimi və obyektdaxili rejim qaydaları haqqında nümunəvi təlimat. №126. 27.08.2007

136. Birdəfəlik buraxılış vərəqələri neçə gün və neçə dəfə istifadə etmək üçün qüvvədədir?

A) Vərəqənin yazıldığı gün və üç dəfə giriş-çıxış üçün

B) Vərəqənin yazıldığı gün və iki dəfə giriş-çıxış üçün

C) Vərəqənin yazıldığı gün və beş dəfə giriş-çıxış üçün

D) Vərəqənin yazıldığı gün və bir dəfə giriş-çıxış üçün

E) Vərəqənin yazıldığı gün və dörd dəfə giriş-çıxış üçün

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: ARDNŞ tabeliyindəki müəssisə vətəşkilatlarda buraxılış rejimi və obyektdaxili rejim qaydaları haqqında nümunəvi təlimat. №126. 27.08.2007

137. Obyektin ərazisinə aşağıdakılardan hansını gətirmək qadağandır?

A) Spirtli içkilər, bihuşedici maddələr, soyuq alət, kəsici alət

B) Spirtli içkilər, bihuşedici maddələr, odlu silah, küt alət

C) Spirtli içkilər, bihuşedici maddələr, odlu silah, kəsici alət

D)  Spirtli içkilər, qalvanik maddələr, yivsiz silah, kəsici alət

E)  Spirtli içkilər, bihuşedici maddələr, yivli silah, kəsici alət

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: ARDNŞ tabeliyindəki müəssisə vətəşkilatlarda buraxılış rejimi və obyektdaxili rejim qaydaları haqqında nümunəvi təlimat. №126. 27.08.2007

138.  Hüquq-mühafizə oranlarının statusu mühafizə fəaliyyətini həyata keçirən şəxslərə hansı halda şamil oluna bilər?

A)  Beş il stajı olana

B)  On il stajı olana

C)  Qanuna əsasən

D)  Üç il stajı olana

E)  On beş il stajı olana

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: www/qartal ss.az/dokuments/xthk 29.01.2019

139. Atıcı tərəfindən xüsusi vasitə hansı hallarda tətbiq oluna bilər?

A)  Saxlanılan şəxslər mühafizəçinin xidməti otağına və ya hüquq-mühafizə orqanına gətirilərkən müqavimət göstərdikdə

B)  Saxlanılan şəxslər mühafizəçinin xidməti otağına və ya hüquq-mühafizə orqanına getmədikdə

C)  Saxlanılan şəxslər mühafizəçinin xidməti otağına və ya hüquq-mühafizə orqanına gətirilərkən uzanaraq getmədikdə

D)  Saxlanılan şəxslər mühafizəçinin xidməti otağına və ya hüquq-mühafizə orqanına gətirilərkən yıxıldıqda

E)  Saxlanılan şəxslər mühafizəçinin xidməti otağına və ya hüquq-mühafizə orqanına gətirilərkən qaçmaq istədikdə

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: www.qartalss.az/dokuments/xthk (29.01.2019) / Xüsusi taktiki hazırlıq

140. Mühafizə olunan obyektdə texniki vasitələrdən istifadə kimin razılığı ilə həyata keçirilir?

A) Obyektlərin mülkiyyətçisinin şifahi razılığı ilə

B) Şirkət rəhbərinin yazılı razılığı ilə

C) Mühafizə xidmətinin yazılı razılığı ilə

D) Qarovul rəisinin yazılı razılığı ilə

E) Obyektlərin mülkiyyətçisinin yazılı razılığı ilə

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: www.qartalss.az/dokuments/xthk (29.01.2019) / Xüsusi taktiki hazırlıq